# Mənim qəhrəmanım sənsən

COVID-19-a qarşı mübarizə aparan uşaqlar



IASC

Inter-Agency Standing Committee

# “Mənim qəhrəmanım sənsən” kitabı haqqında

Bu kitab, Agentliklərarası Daimi Komitə yanında Fövqəladə Hallarda Psixoloji Sağlamlıq və Psixososial Dəstək üzrə Rəyçi Qrup (IASC MHPSS RG) tərəfindən hazırlanmış bir layihədir. Layihədə IASC MHPSS RG-in üzvü olan beynəlxalq, regional və dövlət səviyyəli agentliklərin mütəxəssisləri, həmçinin 104 ölkədən olan valideynlər, müəllimlər, tərbiyəçilər və uşaqlar iştirak ediblər. COVID-19 pandemiyası zamanı uşaqların psixoloji sağlamlığı və psixososial ehtiyaclarını öyrənmək məqsədi ilə ərəb, ingilis, italyan, fransız və ispan dillərində beynəlxalq sorğu keçirilib. Hekayədəki mövzular həmin sorğunun nəticələri əsasında müəyyənləşdirilib. Kitabın məzmunu COVID-19-un təsir etdiyi bir neçə ölkədəki uşaqlara nəql olunub. Daha sonra uşaqların, valideynlərin və müəllimlərin rəyləri əsasında hekayə nəzərdən keçirilib və yenilənib.

Dünyanın hər tərəfindən 1700-dən çox uşaq, valideyn, tərbiyəçi və müəllim COVID-19 pandemiyası ilə necə mübarizə apardıqları barədə bizə danışıblar. Sorğumuzda iştirak etdiyinə və bu kitabın ərsəyə gəlməsində verdiyi töhfəyə görə həmin uşaqlara, onların valideynlərinə, müəllim və tərbiyəçilərinə minnətdarlığımızı bildiririk. Bu hekayə dünyanın hər yerindən olan uşaqlar tərəfindən və onlar üçün yazılıb.

IASC MHPSS RG ssenariyə və illüstrasiyalara görə Helen Patuka təşəkkür edir.
Tərcüməçilər: Sevinc Abdullayeva, Fənarə Bünyadzadə
Redaktor: Fatma Hüseynova

©IASC, 2020. Bu kitab Creative Commons “Qeyri-kommersiya” lisenziyası ilə nəşr olunub (CC BY-NC-SA 3.0 IGO; https://creativecommons.org/licenses/by-nc-sa/3.0/igo). Bu lisenziyaya əsasən, istinad etmək şərti ilə qeyri-kommersiya məqsədləri üçün kitabın yenidən çapına, tərcüməsinə və uyğunlaşdırılmasına icazə verilir.

## Giriş

“Mənim qəhrəmanım sənsən” kitabı dünyanın hər yerində COVID-19 pandemiyasından təsirlənmiş uşaqlar üçündür.

“Mənim qəhrəmanım sənsən” kitabını uşaqlara valideyn, tərbiyəçi və ya müəllim oxumalıdır. Uşaqların bu kitabı müstəqil şəkildə, yəni valideyn, tərbiyəçi və ya müəllimin iştirakı olmadan oxuması tövsiyə edilmir. Daha sonra nəşr olunacaq “Qəhrəmanların davranış qaydaları” adlı əlavə təlimatda COVID-19 pandemiyası ilə bağlı suallara aydınlıq gətiriləcək, uşaqların hiss və emosiyalarının necə idarə olunması, eləcə də bu kitab əsasında uşaqlar üçün əlavə məşğuliyyətlər tövsiyə olunacaq.

## Tərcümələr

Kitabın ərəb, Çin, fransız, rus və ispan dillərinə tərcüməsi Rəyçi Qrup tərəfindən həyata keçiriləcək. Hekayənin digər dillərə tərcüməsi üçün isə IASC yanında Fövqəladə Hallarda Psixoloji Sağlamlıq və Psixososial Dəstək (MHPSS) üzrə Rəyçi Qrupla əlaqə saxlayın (mhpss.refgroup@gmail.com). Bütün tərcümələr IASC Rəyçi Qrupun veb səhifəsində yayımlanacaq.

Bu hekayəni tərcümə edərkən və ya mətni uyğunlaşdırarkən aşağıdakıları nəzərə almalısınız:

- Öz loqonuzun (və ya maliyyələşdirən qurumun loqosunun) istifadəsinə icazə verilmir.
- Uyğunlaşdırma zamanı (əgər mətn və ya şəkillər dəyişdirilərsə) IASC loqosunun istifadəsinə icazə verilmir. Bu hekayənin istənilən məqsədlə istifadəsi zamanı IASC-nın hər hansı bir təşkilatı, məhsulu və ya xidməti dəstəkləməyi nəzərdə tutulmur.
- Tərcümə və ya uyğunlaşmanın lisenziyalaşdırılması Creative Commons və ya ona bərabər lisenziyaya uyğun olmalıdır. Bunun üçün, CC BY-NC-SA 4.0 və ya 3.0 təklif olunur. Uyğun lisenziyaların siyahısı bunlardır: https://creativecommons.org/share-your-work/licensing-considerations/compatible-licenses
- Tərcüməyə aşağıdakı məsuliyyətdən imtina haqqında bildiriş əlavə edilməlidir: “Bu tərcümə/uyğunlaşma Agentliklərarası Daimi Komitə (IASC) tərəfindən hazırlanmamışdır. IASC bu tərcümənin məzmununa və ya dəqiqliyinə görə məsuliyyət daşımır”. Kitabın orijinal ingilis nəşri Agentliklərarası Daimi Komitə tərəfindən hazırlanıb. “Mənim qəhrəmanım sənsən: COVID-19-a qarşı mübarizə aparan uşaqlar” CC BY-NC-SA 3.0 IGO lisenziyası məcburidir və etibarlıdır.






Saranın anası onun qəhrəmanıdır, çünki o, dünyadakı ən yaxşı ana və ən yaxşı alimdir. Lakin Saranın anası da koronavirusun dərmanını tapa bilmirdi.

– Ana, COVID-19-un görünüşü necədir? – Sara anasından soruşdu.

– COVID-19, yəni koronavirus o qədər kiçikdir ki, biz onu gözlə görə bilmirik, – deyə anası cavab verdi.
– Bu virus xəstə insanlar öskürəndə, asqıranda, yaxud da ətrafdakı insanlara və ya əşyalara toxunanda yayılır. Belə xəstələrdə qızdırma, öskürək olur, onlar nəfəs alarkən çətinlik çəkirlər.

– Yəni biz virusu görmədiyimiz üçün onunla mübarizə apara bilmirik? – Sara sual verdi.

Anası cavabında dedi:
– Bu virusla mübarizə aparmaq mümkündür. Elə buna görə sənin diqqətli olmağını istəyirəm, Sara. Virus müxtəlif insanlara təsir edir və hər birimiz mübarizəyə kömək edə bilərik. Bu işdə uşaqların rolu xüsusidir və onlar da yardım edə bilərlər. Sən hamımızın təhlükəsizliyi üçün ehtiyatlı olmalısan. İstəyirəm ki, sən mənim qəhrəmanım olasan, Sara.



Ancaq Sara həmin gecə yatağına uzananda özünü qəhrəman kimi hiss etmirdi. O, məyus idi. Məktəbə getmək istəyirdi, amma məktəblər bağlanmışdı. Dostları ilə görüşmək istəyirdi, lakin bu, təhlükəli idi. Sara koronavirusun dünyanı qorxuya salmasını istəmirdi.

“Qəhrəmanlar fövqəlgüclərə malikdir”, – öz-özünə deyərək gözlərini yumdu ki, yatsın. “Bəs mənim hansı gücüm var?” – düşündü.

Birdən qaranlıqda zəif səs eşidildi, kimsə pıçıltı ilə onu səslədi.

– Orada kim var? – Sara da pıçıldayaraq soruşdu.

– Sara, qəhrəman olmaq üçün sənə nə lazımdır? – yenə həmin səs eşidildi.

Sara cavab verdi:
– Dünyadakı bütün uşaqlara özlərini virusdan necə qoruyacaqlarını izah etməliyəm. Beləcə, uşaqlar da başqalarını qoruya biləcəklər.

– Bəs bunun üçün nəyə ehtiyacın var? – naməlum səsin sahibi soruşdu.

– Mənə uça bilən biri lazımdır... Uca səslə danışa bilən... Yəni kömək edə bilən biri!

Bu vaxt vıyıltı eşidildi, otağa düşən Ay işığında möcüzəli bir şey göründü...





– Sən kimsən?  – Sara heyrət içində soruşdu.

– Mən Arioyam, – o cavab verdi.

– İndiyə qədər heç Ario görməmişəm,  – Sara dilləndi.

– Əslində mən həmişə burada idim, – Ario dedi. – Mən sənin qəlbində idim.

– Əgər sən mənim yanımda olsan, onda dünyadakı bütün uşaqlara koronavirus haqqında danışa bilərəm! – Sara sevindi.
– Mən qəhrəman ola bilərəm! Bir dəqiqə, Ario, bəs koronavirusun bütün dünyaya yayıldığı vaxtda səyahət etmək təhlükəli deyil?

Ario onu sakitləşdirdi:
– Ancaq mənimlə səyahət etmək təhlükəli deyil, Sara. Əgər birlikdə olsaq, heç nə bizə zərər verə bilməz.






Beləliklə, Sara atılıb Arionun kürəyində oturdu və onlar birlikdə pəncərədən çıxıb, qaranlıq səmaya qalxdılar. Sara və Ario ulduzlara doğru uçdular, Aya salam verdilər.

Səhər Günəş doğanda onlar piramidaların yaxınlığında, uşaqların oynadığı gözəl bir səhrada yerə endilər. Uşaqlar onları görüb sevincək qışqırdılar və Sara ilə Arioya əl elədilər.

– Xoş gördük! Mənim adım Salemdir! – deyə oğlanlardan biri qışqırdı. – Burada nə işiniz var? Bağışlayın, sizə yaxınlaşa bilmərik, çünki aramızda ən azı bir metr məsafə olmalıdır!

– Elə biz də buna görə gəlmişik! – Sara onlara səsləndi. – Mən Sarayam, bu isə Ario. Heç bilirsiniz, uşaqlar qonşularını, dostlarını, valideynlərini, nənə və babalarını koronavirusdan qoruya bilər? Hamımız bunu edə bilərik...

– Əllərimizi su və sabunla yumalıyıq! – Salem gülümsəyərək dedi.
– Bilirik, Sara. Xəstələnəndə dirsək büküyümüzə öskürməliyik və görüşərkən əl sıxmaq əvəzinə bir-birimizə əl yelləməliyik. Biz evdən çıxmamağa çalışırıq, lakin böyük şəhərdə yaşayırıq... heç də hamı evdə qalmır.

– Bəlkə, bu işdə sizə kömək edə bilərəm, – Ario dedi. – Onlar koronavirusu görə bilmirlər, məni isə... mütləq görəcəklər! – sonra uşaqlara səsləndi: – Mənimlə gəlin, amma xahiş edirəm, hərəniz bir qanadımın üstündə oturun, çünki onların arasında ən azı bir metr məsafə var!



Salemlə Sara Arionun qanadlarının üstündə oturdular və o, səmaya doğru qalxdı. Ario şəhərin üzərindən uçarkən nərə çəkir və mahnı oxuyurdu! Salem küçədəki uşaqlara səsləndi:

– Gedin ailənizə deyin ki, evdə qalmaq daha təhlükəsizdir! Bir-birimizi qorumağın ən yaxşı yolu evdə qalmaqdır.

İnsanlar onları görüb heyrətləndilər. Onlar Sara, Salem və Arioya əl yellədilər və evə getməyə razı oldular.





Ario göyün üzündə bir
az da yüksəyə qalxdı.
Salem heyrətdən qışqırdı.
Yuxarıda – buludların
arasında bir təyyarə
uçaraq onların yanından
keçdi, bütün sərnişinlər
təəccüblə onlara baxırdılar.

– Tezliklə insanlar bir
müddətliyə də olsa, bütün
səyahətləri təxirə salmalı
olacaqlar, – Salem dedi.
– Bütün dünyada
sərhədlər bağlanır.
Hamımız yaşadığımız
yerdə, sevdiklərimizin
yanında qalmalıyıq.

– Çox şeyin dəyişdiyini hiss
edirəm, – Sara kədərləndi.
– Bəzən bu məni qorxudur.

– Dəyişikliklərin çox olması qorxu və çaşqınlıq yaradır, –
deyə Ario cavab verdi. – Mən qorxanda çox yavaş nəfəs
alıram, sonra isə nəfəsimdən alov çıxır!

Ario nəhəng bir alov topası püskürdü!

– Bəs siz qorxanda necə sakitləşirsiniz? – deyə
Ario uşaqlardan soruşdu.



– Mən yanında olanda özümü təhlükəsiz hiss etdiyim adamlar haqqında düşünməyi sevirəm, – Sara cavab verdi.

– Mən də. Məsələn, nənəmlə babamı düşünürəm, onların yanında olanda heç nədən qorxmuram, – Salem dedi.
– İndi onlar üçün darıxıram. Babamla nənəmi koronavirusa yoluxdurmamaq üçün onları qucaqlaya bilmirəm. Biz hər həftəsonu onları görməyə gedirdik, amma indi görüşə bilmirik, çünki yaşlıları qorumalıyıq.
– Bəs onlara zəng edə bilirsən? – Sara dostundan soruşdu.

– Əlbəttə!  – Salem cavab verdi. – Onlar hər gün bizə zəng edirlər və mən evdə nə etdiyimizi onlara danışıram. Babamgillə söhbət edəndən sonra mən də, onlar da özümüzü yaxşı hiss edirik.

– İndi sevdiyimiz insanları görə bilmədiyimiz üçün darıxmağımız normaldır,  – Ario dedi. – Bu, onların bizdən ötrü nə qədər əziz olduğunu göstərir. Bəs başqa qəhrəmanlarla görüşsəniz, özünüzü daha yaxşı hiss edərsiniz?

– Əlbəttə! – Sara və Salem sevincək cavab verdilər.

– Çox gözəl! Dostum Saşanın tamamilə fərqli fövqəlgücü var, – Ario dedi.

– Elə isə getdik!





Beləliklə, onlar uçaraq aşağı enməyə başladılar və kiçik bir kəndə düşdülər. Bir evin yaxınlığında qız çiçək dərirdi. O, Arionu və onun qanadlarında oturan uşaqları görüb qəhqəhə çəkdi.

– Ario! – deyə qız qışqırdı. – Ən azı bir metr məsafə saxlamalıyıq, buna görə də səni uzaqdan qucaqlayıram! Sizin burada nə işiniz var?

– Saşa, sən belə deyəndə sanki məni necə qucaqladığını hiss etdim,  – Ario sevindi.
– Duyğularımızı və davranışlarımızı sözlər vasitəsilə ifadə etməyi çox sevirəm. Mən istəyirəm ki, dostlarım sənin fövqəlgücünün nə olduğunu bilsinlər.

– Mənim fövqəlgücüm nədir ki? – Saşa təəccübləndi.

– Ailənizdə bir nəfər koronavirusa yoluxub və sən də başqalarını xəstələndirməmək üçün evdə qalırsan,  – Ario izah etdi.

– Bəli, mənim atam bu xəstəliyə yoluxub. O, tam sağalana qədər öz yataq otağında qalacaq, – Saşa onun dediyini təsdiqlədi.



Ancaq vəziyyət o qədər də pis deyil! Biz oyun oynayırıq, yemək bişiririk, bağda əylənirik və birlikdə yemək yeyirik. Qardaşlarımla idman və rəqs edirik. Kitab oxuyuruq və mən dərslərimi öyrənirəm, çünki bəzən məktəb üçün darıxıram. Əvvəlcə evdə qalmaq qəribə idi, indi isə özümü daha rahat hiss edirəm.

– Bu elə də asan deyil, Saşa, – Ario dedi. – Sən özünə maraqlı məşğuliyyətlər tapırsan və evdə sevdiklərinlə maraqlı vaxt keçirirsən. Buna görə sən mənim qəhrəmanımsan!

– Bəs heç evdəkilərlə mübahisə etmirsən? – Salem soruşdu.

– Bəzən olur, – Saşa etiraf etdi. – Biz səbirli olmalı, bir-birimizi başa düşməli və səhv edəndə dərhal üzr istəməliyik. Əsl fövqəlgüc də budur, çünki həm özümüzün, həm də başqalarının özünü yaxşı hiss etməsinə səbəb olur. Hərdən tək qalmaq istəyirəm. Tək olanda rəqs etməyi və mahnı oxumağı sevirəm! Bəzən də dostlarıma zəng edirəm...

– Ario, bəs evi olmayan və ya öz evindən uzaqda olan insanlar nə etməlidirlər? – Sara soruşdu.

– Bu çox yaxşı sualdır, Sara, – Ario dedi.
– Gəlin gedək bunun cavabını öyrənək.







Beləliklə, onlar Saşa ilə vidalaşdılar və yenə yola düşdülər. Ario və uşaqlar dənizin ortasında bir adaya enərkən hava bir az isinmişdi.



Burada insanlarla dolu bir düşərgə gördülər. Bir qız onları görüb uzaqdan əl elədi.

– Salam, Ario! Səni yenidən gördüyümə çox sevindim! – o sevinclə dedi. – Biz ən azı bir metr məsafə saxlamağa çalışırıq, ona görə də səninlə buradan danışacağam. Dostlarınla tanış olmaq istərdim. Mənim adım Leyladır.

Sara tez dilləndi:
– Xoş gördük, Leyla! Mənim adım Saradır, bu isə Salemdir. Deyəsən, siz də koronavirusdan qorunursunuz. Bunun üçün başqa nə edirsiniz?

– Əllərimizi sabun və su ilə yuyuruq! – Leyla cavab verdi.

– Bəs siz öskürəndə ağzınızı dirsəyinizin büküyünə tutursunuz? – Salem sual verdi.

– Bunun necə edildiyini bizə də göstərə bilərsən? – deyə Leyla soruşdu. Salem onun dediyini etdi.

– Biz qorxmamağa çalışırıq, amma bir məsələ məni narahat edir, – Leyla söylədi. – Bu barədə sizinlə danışa bilərəm? Bir nəfərin xəstələnib öldüyünü eşitdim və bu məni çox qorxutdu. – Həqiqətən, insanlar koronavirusdan ölə bilər?



Ario dərindən ah çəkib, yerdə əyləşdi.

– Bəli, kiçik qəhrəmanlar, bu, həqiqətən qəribədir, – deyə Ario təsdiqlədi. – İnsanların bir qismi bu xəstəliyə yoluxsalar da, özlərini pis hiss etmirlər, lakin bəziləri xəstəliyi çox ağır keçirir və hətta ölürlər. Buna görə yaşlı və başqa xəstəliyi olan insanlar xüsusilə ehtiyatlı olmalıdır, çünki onlar xəstələnməyə daha çox meyillidirlər. Bəzən çox qorxanda və təhlükədə olduğumuzu hiss edəndə təhlükəsiz bir yer haqqında düşünmək bizə kömək edə bilər. Bunu birlikdə təcrübədən keçirmək istəyirsiniz?

Uşaqların hamısı razılaşdı və Ario onlardan xahiş etdi ki, gözlərini yumub, özlərini təhlükəsiz saydıqları bir yerdə təsəvvür etsinlər.

– Özünüzü təhlükəsiz hiss etdiyiniz bir anı və yeri düşünün, – o dedi.

Ario uşaqlardan həmin təhlükəsiz yerdə nə gördüklərini, nə hiss etdiklərini və hansı qoxunu duyduqlarını soruşdu. Sonra onların öz təhlükəsiz məkanlarına dəvət etmək istədikləri xüsusi bir adamın olub olmadığını və onunla nə barədə danışmaq istədiklərini xəbər aldı.

– Kədərlənəndə və qorxanda təhlükəsiz yerə gedə bilərsiniz, – Ario sözünə davam etdi. – Bu, sizin fövqəlgücünüzdür, bunu dostlarınız və ailənizlə bölüşə bilərsiniz. Unutmayın ki, mən və bir çox insan sizin qayğınızı çəkirik. Bu da sizə kömək edəcək.



– Hamımız bir-birimizin qayğısına qala bilərik, – Leyla dedi.

– Doğrudur, Leyla, – Ario təsdiqlədi. – Harada olmağımızdan asılı olmayaraq, bir-birimizin qayğısına qala bilərik. Son səfərimizdə bizə qoşulmaq istəyirsən?

Leyla Ario və yeni dostları ilə səyahət etmək qərarına gəldi. Sara Leylanın da onlara qoşulmağına sevinirdi, çünki o anlayırdı ki, bəzən insanlar bir-birinin köməyinə ehtiyac duyurlar. Onlar heç danışmadan sakitcə uçurdular, lakin Leyla bilirdi ki, yeni dostları onun üçün narahat olurlar.



Nəhayət, get-gedə dağların qarlı zirvələri görünməyə başladı və Ario kiçik bir şəhərdə yerə endi. Çayın kənarında bir neçə uşaq oynayırdı.

– Ario! – deyə uşaqlardan biri qışqıraraq onlara əl elədi.

– Salam, Kim! – Ario ona dedi. – Mən sizi koronavirusa yoluxmuş və artıq sağalmış dostlarımla tanış etmək istəyirəm.

– Bu, necə baş verdi? – Salem maraqla soruşdu.

– Mən öskürürdüm və bəzən qızdırmam çox artırdı. Özümü olduqca yorğun hiss edirdim və bir neçə gün ümumiyyətlə oynamaq istəmirdim, – o dedi. – Ancaq çox yatırdım və ailəm mənə yaxşı qulluq edirdi. Bəzilərimizin valideynləri və nənə-babaları xəstəxanaya getməli oldular. Tibb bacıları və həkimlər onların qayğısına qalırdılar, ətrafımızdakı insanlar da evdə bizə kömək edirdilər. Beləcə bir neçə həftəyə tamamilə sağaldıq.



– Mən Kimin dostuyam,  – uşaqlardan biri dilləndi. – Kim koronavirusa yoluxsa da, hətta biz heç görüşə bilməsək də, bu, dostluğumuza mane olmadı. Mən həmişə onunla maraqlanırdım və ona görə narahat olurdum. Tezliklə biz yenidən dostumla birlikdə oynaya biləcəyik və buna görə özümüzü xoşbəxt hiss edirik!

– Bəzən dostumuz üçün edə biləcəyimiz ən vacib şey bir-birimizi qorumaqdır,  – Ario gülümsəyərək təsdiqlədi, – hətta bir müddət görüşə bilməsək də...



– Bir-birimiz üçün bunu edə bilərik,  – Leyla dedi.

Salem də ona qoşuldu:
– Biz yenə əvvəllər olduğu kimi birlikdə oynaya və məktəbə gedə biləcəyik!

Artıq Saranın dostları ilə vidalaşmaq və evə qayıtmaq vaxtı çatmışdı. Onlar söz verdilər ki, bu macəranı heç vaxt unutmayacaqlar.

Sara dostlarını bir müddət görə bilməyəcəyini düşünüb kədərləndi. Sonra Kimin dostunun dediklərini xatırlayanda özünü yaxşı hiss etdi. Axı kimisə görə bilmiriksə, bu o demək deyil ki, onu artıq sevmirik.



Ario uşaqların hamısını öz evinə qaytardı və uçmadan öncə Saranın yuxuya getməsini gözlədi.
– Biz sabah da səyahət edə bilərik? – deyə Sara soruşdu.

– Yox, Sara, sən artıq ailənin yanında olmalısan, – Ario cavab verdi. – Bu macəramızı unutma. Əllərini yuyub evdə qalmaqla sevdiyin insanları qoruya bilərsən. Mən uzaqda deyiləm. Nə vaxt sən öz təhlükəsiz məkanına xəyalən səyahət etsən, mən də orada olacağam.

– Sən mənim qəhrəmanımsan, – Sara Arioya dedi.

– Sən də mənim qəhrəmanımsan, Sara. Sən bütün sevdiklərinin qəhrəmanısan, – deyə Ario cavab verdi.



Sara yuxuya getdi və səhər oyananda Ario artıq yox idi. O, Ario ilə söhbət etmək üçün öz təhlükəsiz məkanına getdi və sonra bütün səyahət boyu gördüyü, öyrəndiyi hər şeyin rəsmini çəkdi. Sara çəkdiyi rəsmləri anasına göstərmək və hər şeyi danışmaq üçün onun yanına qaçdı.

– Ana, biz bütün insanları qoruya bilərik, – dedi. – Mən səyahət zamanı çoxlu qəhrəmanla tanış oldum!

– Tamamilə doğrudur, Sara! – anası razılaşdı. – Dünyada insanları koronavirusdan qoruyan xeyirxah həkimlər və tibb bacıları kimi nə qədər qəhrəman var. Ancaq sən hər gün, hər birimizin qəhrəman ola biləcəyini mənə xatırlatdın və mənim ən böyük qəhrəmanım sənsən!



